# Görkəmli iqtisadçı alim, müdrik insan

**Görkəmli iqtisadçı alim, Azərbaycan MEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Regional İqtisadi və Sosial Araşdırmalar İnstitutunun direktoru Əli Xudu oğlu Nuriyevin anadan olmasının 80, elmi və pedaqoji fəaliyyətinin 55 ili tamam olmuşdur.**

Əli Nuriyev 1939-cu il iyun ayının 26-da Füzuli rayonunun Horadiz kəndində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra bir il doğma kəndində sıravi kolxozçu işləmiş, 1958-ci ildə müvəffəqiyyətlə imtahan verib Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna (1959-cu ildən Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsinə) daxil olmuşdur. Universitetdə əla qiymətlərlə oxumaqla bərabər Əli Nuriyev geniş ictimai iş aparmış, fakültə (burada 4 min nəfərdən çox tələbə oxuyurdu) komsomol komitəsi katibinin müavini, "Siyasi iqtisad" fənni üzrə universitetdə tələbə elmi cəmiyyətinin sədri olmuşdur.

O, 1963-cü ildə ADU-nun iqtisad fakültəsinin maliyyə-kredit ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. Öz xahişi ilə Naxçıvan MR-ə təyinat almış, bir neçə ay Naxçıvan şəhər maliyyə şöbəsində böyük iqtisadçı vəzifəsində işləmişdir. Sonra o, Azərbaycan Dövlət Universitetinin Siyasi iqtisad kafedrasının müdiri, professor Həsən Dadaşov tərəfindən Siyasi iqtisad kafedrasına baş laborant vəzifəsinə dəvət olunmuş və bir il bu kafedrada işləmiş, siyasi iqtisadın kapitalizm və sosializm bölməsindən əla qiymətlə namizədlik minimumu vermişdir. Sonra öz fəaliyyətini birinci növbədə elmə həsr etmək arzusu ilə Azərbaycan Respublikası Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun "İctimai istehsalın yerləşdirilməsi" şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul edilmişdir. 1966-cı ildə Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunun əyani aspiranturasına daxil olmuş və 1969-cu ildə i.e.d., professor Asəf Nadirovun rəhbərliyi altında yazmış olduğu "Aşağı Kür-Araz sənaye kompleksi və onun gələcək inkişaf yolları" mövzusunda dissertasiya işini müdafiə edərək "Məhsuldar qüvvələrin yerləşməsi, SSRİ rayonlarının iqtisadiyyatı" ixtisası üzrə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. SSRİ EA Rəyasət Heyətinin qərarı ilə 1977-ci ildə ona həmin ixtisas üzrə "Böyük elmi işçi" elmi adı verilmişdir.

1991-ci ildə SSRİ Ali Attestasiya Komitəsinin Azərbaycan EA İqtisadiyyat İnstitutunda təşkil etdiyi geniş tərkibli birdəfəlik Dissertasiya Şurasının iclasında "Yeni təsərrüfatçılıq şəraitində müttəfiq respublikanın xalq təsərrüfatının ərazi quruluşunun təkmilləşdirilməsi (Azərbaycan Respublikasının timsalında)" mövzusunda dissertasiya müdafiə edərək "Xalq təsərrüfatı və onun sahələrinin iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" (sənaye) və "Məhsuldar qüvvələrin yerləşdirilməsi, SSRİ rayonlarının iqtisadiyyatı" ixtisasları üzrə iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. 2001-ci ilin iyun ayında o, AMEA-nın müxbir üzvü seçilmiş, 2005-ci ildə ona Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəçiliyi və menecment kafedrası üzrə professor elmi adı verilmişdir.

Ə.Nuriyev namizədlik dissertasiyası müdafiə etdikdən sonra 1969-1972-ci illərdə Akademiyanın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, böyük mühəndis-iqtisadçı və böyük elmi işçi vəzifələrində işləmişdir. 1972-ci ildə Azərbaycan EA Rəyasət Heyətinin qərarı ilə Naxçıvan Elm Mərkəzinin təşkilatçılarından biri kimi Naxçıvan şəhərinə göndərilmiş və orada 1980-ci ilədək iqtisadiyyat şöbəsinin müdiri işləmiş, həm də 1974-cü ildən başlayaraq ictimai əsaslarla tarix şöbəsinə rəhbərlik etmişdir. 1980-1981-ci illərdə Ümumittifaq Kooperativ Ticarətinin İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Azərbaycan filialında elmi hissə üzrə direktor müavini, 1982-1989-cu illərdə Azərbaycan Sənaye İnstitutunda dosent vəzifələrində işləmişdir. 1989-cu ildən Əli Nuriyev yenidən Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunun "Regionların sosial-iqtisadi inkişaf problemləri" şöbəsində böyük elmi işçi, aparıcı elmi işçi, şöbə müdirinin müavini vəzifələrində, 1992-2002-ci illərdə həmin şöbənin müdiri vəzifəsində işləmişdir. 2002-ci ilin oktyabr ayından 2013-cü ilədək Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzinin müdiri vəzifəsində işləmiş, 2013-cü ildən başlayaraq həmin Akademiyada Regional İqtisadi və Sosial Araşdırmalar İnstitutunun direktoru vəzifəsində işləyir. Əli müəllim əmək fəaliyyəti dövründə işlədiyi bütün vəzifələrə məsuliyyətlə yanaşmış, onları layiqincə yerinə yetirmiş və işlədiyi yerlərdə böyük hörmət qazanmışdır.

O, 270-dən çox elmi, elmi-metodiki əsərin, o cümlədən 26 monoqrafiya, dərslik və kitabçanın (bunlardan 8-i şəriklidir) müəllifidir.

Onun yaradıcılığının ikinci mərhələsi 1980-ci ildən başlayaraq 1996-cı ilə qədər olan uzun bir dövrü əhatə edir. Bu dövrdə onun tədqiqatları və əsərlərinin mövzu dairəsi daha da genişlənir. Məhsuldar qüvvələrin ərazi təşkili, iqtisadi rayonlaşdırma, inzibati-ərazi bölgüsü, sənaye komplekslərinin inkişafı və ərazi idarəetmə məsələlərini kompleks halda əhatə edir. "Məhsuldar qüvvələrin respublika daxilində yerləşməsinin təkmilləşməsinin sosial-iqtisadi problemləri" (Bakı, Elm, 1982) monoqrafiyası Əli Nuriyevin 80-ci illərdəki yaradıcılığında xüsusi yer tutur. Burada məhsuldar qüvvələrin 70-ci illərdəki inkişafı və ərazi təmərküzləşməsindən yaranan sosial-iqtisadi problemlər Azərbaycanda ilk dəfə olaraq kompleks tədqiq edilmişdir.

1990-cı illərin birinci yarısında Əli Nuriyevin elmi-tədqiqat işlərində, çap olunmuş elmi məqalə və kitablarında ("Özünü maliyyələşdirmə şəraitində respublikanın ərazi quruluşunun kompleks təkmilləşdirilməsi"-1990; "Azərbaycan Respublikasının iqtisadi və inzibati ərazi quruluşunun kompleks təkmilləşdirilməsi"-1991; "Rayonlaşdırma və ərazi idarəetmə probleminin yeni formada qoyuluşu və həllinin metodoloji məsələləri"-1994 və i.a.) inzibati-ərazi bölgüsünün və respublikadaxili iqtisadi rayonlaşmanın nəzəri-metodoloji məsələləri keçmiş İttifaqda ilk dəfə olaraq kompleks halda və qarşılıqlı əlaqədə elmi-tədqiqat obyektinə çevrilmişdir.

Alimin 90-cı ilin birinci yarısındakı yaradıcılığında "Azərbaycan Respublikasının böhran vəziyyətindən çıxması və inkişafının prinsipial məsələləri" (Bakı, 1992, 128 səh.) monoqrafik əsəri xüsusi yer tutur.

90-cı illərin axırlarında Əli Nuriyev respublikanın digər tanınmış alimlərilə birlikdə Naxçıvan iqtisadiyyatının inkişafı ilə bağlı məsələlərin tədqiqinə öz əsərlərində yenidən müraciət etmişdir. Onun "İqtisadiyyat" qəzetində dərc olunmuş silsilə məqalələrində (akademik Asəf Nadirovla birlikdə), "Naxçıvan iqtisadiyyatı XX əsrdə" monoqrafiyasında (A.Nadirov, Ş.Muradova həmmüəllif, Bakı, Elm, 2000), onun həmmüəlliflərindən biri olduğu "Naxçıvan iqtisadiyyatı statistika güzgüsündə" (Bakı, Elm, 1999) monoqrafiyasında Naxçıvan iqtisadiyyatının XX əsrdə keçdiyi inkişaf mərhələləri, həll etməli olduğu problemlər, əldə etdiyi nailiyyətlər, bazar münasibətləri şəraitində inkişafının əsas problem məsələləri və istiqamətləri öz əksini tapmışdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) qəbul ediləndən sonra nəşr edilmiş "Regional inkişaf və idarəetmə" (Bakı, Elm, 2004, 345 səh.) kitabında proqram ətraflı təhlil edilmiş və yerinə yetiriləcəyinə möhkəm inam (o zaman proqramın reallığına inanmayanlar da vardı) ifadə olunmuşdur. Sonrakı illərdə yazdığı monoqrafik əsər və dərsliklərdə (Regional idarəetmənin əsasları, Bakı: Elm, 2007, 428 s.; Regional siyasət və idarəetmənin əsasları - ikinci nəşr, Bakı: 2011, 513 s.; Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları, Bakı: 2013, 417 s.) respublikamızda ilk dəfə olaraq Regional inkişaf strategiyası, regional siyasət və idarəetmənin ərazisi nisbətən kiçik respublikalara, o cümlədən Azərbaycan şəraitinə tətbiq oluna bilən nəzəri-metodoloji məsələləri ətraflı təhlil olunur. Ümummilli liderimiz Heydər Əliyevin regional inkişaf strategiyasının və siyasətinin Prezident İlham Əliyev tərəfindən yeni formalarda davam və inkişaf etdirilməsi xüsusiyyətləri, "Regionların sosial-iqtisadi inkişafı I, II, III - Dövlət proqramlarının strategiyası və onların yerinə yetirilməsi sahəsində əldə olunmuş nailiyyətlər ətraflı şərh olunur.

Əli Nuriyev Azərbaycanın müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümü ilə bağlı xalqımızın 25 il ərzində əldə etdiyi nailiyyətlərə məqalələr həsr etmək, konfranslarda məruzə etməklə yanaşı, AMEA Rəyasət Heyətinin qərarı ilə nəşr edilən "Müstəqillik yollarında - 25" (Bakı: 2016, 627 s.) kitabında "İqtisadi böhrandan sabitliyə, islahata və inkişafa doğru (səh. 151-169) və "Regionların inkişafının yeni epoxası" (səh. 328-349) yarımfəsillərini yazmışdır. Bununla yanaşı Ə.Xu.Nuriyev müstəqilliyin 25 illiyi ilə əlaqədar Moskvada Q.B.Plexanov adına Rusiya İqtisad Universitetində nəşr edilmiş "Post sosialist dövlətlərinin iqtisadiyyatı və siyasəti: Transformasiya təcrübəsi" (REA-nın m.ü., i.e.d., professor P.İ.Xasbulatovun redaktorluğu ilə) kitabının 2-ci cildinin 4-cü fəslinin (Azərbaycanın iqtisadiyyatı, səh. 88-137, i.e.n. Elşən Əhmədovla birgə) həmmüəllifidir.



Əli Nuriyevin son illərdəki yaradıcılığında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Böyük Elmi Şurasının qərarı ilə nəşr olunmuş "Davamlı və tarazlı regional inkişaf" (Bakı: "Avropa"-2017, 247 s.) kitabı, AMEA İqtisadiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr olunmuş "İqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşməsi ətrafında düşüncələr, təklif və tövsiyələr" (Bakı: 2019, 48 s.) kitabçası (M.Ə. Abdalova ilə həmmüəllif) mühüm yer tutur.

Ə.X.Nuriyevin yaradıcılığı iqtisadiyyatdan xeyli kənara çıxır, bir sıra hallarda fəlsəfi, bədii xüsusiyyətlər kəsb edir. Onun "Azərbaycan Respublikasının böhran vəziyyətindən çıxması və inkişafının prinsipial məsələləri", "Anamın həyat fəlsəfəsi" (1997), "İnsan və həyat fəlsəfəsi" (Bakı, 2005) monoqrafik əsərlərində, "Ömür, ölüm və həyat" (2007), "Ailə, təhsil və milli-mənəvi dəyərlər" (2008) və i.a. məqalələrində bir vətəndaş-alim olmaq etibarilə onun cəmiyyət, insan, dövlət, elm, təhsil, müəllim, din, idarəetmə, ailə, övlad-valideyn münasibətləri haqqında baxışları sistemləşdirilmişdir.

Əli Nuriyev Dövlət İdarəçilik Akademiyasında işlədiyi illərdə də nəzəri tədqiqatları Azərbaycan reallığı ilə sıx əlaqələndirmişdir. Keçid dövrünün başa çatması ideyası ilk dəfə onun tərəfindən irəli sürülmüş və elmi cəhətdən əsaslandırılmış yeni dövrün sosial-iqtisadi inkişaf konsepsiyası və strategiyasının hazırlanmasının vacibliyi haqqında öz təklif və tövsiyələrini müvafiq dövlət və elmi strukturlarda müzakirə obyektinə çevirmişdir. 2018-ci il mart ayında son 3 ildə apardığı elmi tədqiqatları ümumiləşdirərək iqtisadiyyatın inkişafında dövlətin təsiredici və tənzimləyici rolunun artırılması, elmi tədqiqatların ən vacib mövzularının müəyyənləşdirilməsi və elmi potensialdan səmərəli istifadə olunmasına aid təklif və tövsiyələrini respublika Prezidentinin icra aparatına və AMEA-nın rəhbər strukturlarına təqdim etmişdir.

Ə.Nuriyev uzun illərdir ki, elmi yaradıcılığı pedoqoji fəaliyyətlə sıx əlaqələndirir, əldə etdiyi nəticələri tələbələrə çatdırır. O, 1982-ci ilədək Azərbaycanın ali məktəblərində siyasi iqtisad fənnindən mühazirələr oxumuşdur. 1982-1989-cu illərdə özünün müəllimlik taleyini Sumqayıt şəhərinin yeganə ali məktəbi olan Azərbaycan Sənaye İnstitutuna (Hazırda Sumqayıt Dövlət Universiteti) bağlamaqla müxtəlif iqtisadi fənnləri yüksək səviyyədə tədris etmiş, sonrakı dövrdə də bu ali məktəblə sıx əməkdaşlıq şəraitində işləmişdir. 2000-ci ildən başlayaraq Dövlət İdarəçilik Akademiyasında müxtəlif fənnləri tədris etmişdir. Əli Nuriyevin "Regional siyasi və idarəetmənin əsasları" dərsliyi, onun yaxından iştirakı ilə hazırlanıb, nəşr edilmiş "Dövlət İdarəçilik nəzəriyyəsi" dərsliyi (2010-cı il) uzun illərdir ki, tədris prosesində müvəffəqiyyətlə istifadə olunur.

Əli müəllim gənc alimlərin elmi əsərlərinin 1970-ci ildə keçirilən Ümumrespublika müsabiqəsinin qalibi, apardığı elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqinə və ictimai fəaliyyətinə görə 1977-ci ildə SSRİ EA-da sosializm yarışının qalibi olmuşdur. 2000-ci, 2009-cu və 2014-cü illərdə Azərbaycan MEA Rəyasət Heyətinin "Fəxri fərmanı"na layiq görülmüşdür. 2009-cu il sentyabr ayının 10-da ona Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adı verilmişdir.

İqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Regional İqtisadi və Sosial Araşdırmalar İnstitutunun direktoru, zəhmətkeş və xeyirxah insan, gözəl müəllim Əli Xudu oğlu Nuriyev ömrünün müdrikləşmə, yaradıcılığının yetkinlik dövrünü yaşayır. Biz həmkarları və dostları adından ona möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Məhiş ƏHMƏDOV,**
**iqtisad elmləri doktoru, professor,**
**əməkdar müəllim.**
**Müşfiq ATAKİŞİYEV,**
**iqtisad elmləri doktoru, professor.**